AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№ 2 (1504), 18 - 24 yanvar 2022-ci il* *Qəzet 2001-ci ildən çıxır.*

## "İdman sahəsində seleksiya üzrə baş mütəxəssislərə aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İdman sahəsində seleksiya üzrə baş mütəxəssislərə aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, II 5, maddə 453; 2007, II 11, maddə 1179; 2008, II 9, maddə 863; 2014, II 3, maddə 310; 2018, II 3, maddə 615; 2019, II 10, maddə 1676; 2020, II 9, maddə 1212) 1-ci hissəsində "890 (səkkiz yüz doxsan)" sözləri "1070 (min yetmiş)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

*Əli Əsədov*

***Azərbaycan Respublikasının Baş naziri***

***Bakı şəhəri, 14 yanvar 2022-ci il***

## İlin ilk qızıl medalı




Azərbaycanın güllə atıcısı Ruslan Lunyov ISSF Qran-Pri yarışında qızıl medal qazanıb. Ruslan Lunyov Sloveniyanın Ruşe şəhərində keçirilən yarışda pnevmatik tapançadan 10 m məsafəyə atəş açmada qızıl medal qazanıb.

Xəbəri sosial şəbəkə hesabında paylaşan gənclər və idman naziri Fərid Qayıbov "İlin ilk qızılı" yazıb.

## Bu gün "Park İnn" hoteldə Pekin-2022-yə həsr olunmuş tədbir keçiriləcək

Bu gün "Park İnn" hoteldə Milli Olimpiya Komitəsinin Pekin-2022 Qış Olimpiya Oyunları ilə bağlı təqdimatı olacaq. Bakı vaxtilə saat 17:00-da başlayacaq tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Çin Xalq Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min iştirak edəcək.

Tədbirdə Azərbaycan Olimpiya komandasının üzvləri, fiqurlu konkisürənlərimiz Yekaterina Ryabova və Vladimir Livintsevin videomüraciəti olacaq.

Bundan başqa tədbirdə Pekin-2022 Qış Olimpiya Oyunlarının rəsmi idman geyimləri nümayiş etdiriləcək.

## Gənclər və idman naziri cüdo yarışlarını izləyib



Gənclər və İdman Nazirliyi və Azərbaycan Cüdo Federasiyası (ACF) tərəfindən yeniyetmələr arasında cüdo üzrə Azərbaycan birinciliyi keçirilib. Gənclər və idman naziri Fərid Qayıbov turnirin ikinci günündə yarışı izləmək üçün Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman Sağlamlıq Mərkəzinə gəlib. Nazir 52 kiloqram çəki dərəcəsində qalib və mükafatçı qızları medallarla təltif edərək onlara uğurlar arzulayıb.

Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli, baş katibi Rəşad Rəsullu və federasiya prezidentinin müşaviri Natiq Bağırov nazirə qarşıdakı yarışlar, planlar və tədbirlər barədə məlumat veriblər.

## Olimpizm

### *Pekin-2022 texnoloji üstünlükləri ilə digərlərindən fərqlənəcək*

Pekin-2022 Qış Olimpiya Oyunlarına hazırlıq prosesi davam edir. Builki yarış texnoloji üstünlükləri ilə digərlərindən fərqlənəcək. Çin nümayəndə heyəti qida sektoru ilə bağlı növbəti yeniliyi təqdim edib. Belə ki, jurnalistlər və işçi heyətə yeməkləri insanlar əvəzinə xüsusi robotlar verəcək. Bununla bağlı sınaq təqdimatı da keçirilib.

Eyni zamanda Olimpiadalar tarixində ilk dəfə əksər oyun meydanları 100 faizlik bərpa olunan enerji ilə təmin olunacaq. Yarış arenalarına 700-dən çox hidrogenlə işləyən avtomobilin də cəlb olunacağı gözlənilir.

Beynəlxalq Olimpiya Komitəsi və Çin rəhbərliyinin birgə razılığına əsasən, yarışları yalnız yerli azarkeşlər izləyəcək. Tokio-2020 Yay Olimpiya Oyunlarından fərqli olaraq bu dəfə xaricdən gələn media nümayəndələri və atletlərə daha sərt COVID-19 protokolları tətbiq olunacaq.

Xatırladaq ki, Pekin-2022 Qış Olimpiya Oyunları fevralın 4-dən 20-dək keçiriləcək.

## 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə həkk olunub

**Səh. 3**




*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## A n o n s



### "Soyuq olimpiada" həyəcanı ilə döyünən isti ürəklər

**Səh. 4-5**

### *"ZENİT" BTİCİB-də gələcəyin peşəkar boksçuları yetişir*



**Səh. 6**



### *Sumoçu qadın*

**Səh. 7**

## Fərid Qayıbov Azərbaycan Autizm Assosiasiyasının üzvləri ilə görüşüb

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Autizm Assosiasiyasının üzvləri ilə görüşüb. Respublika Olimpiya Mərkəzində keçirilən görüşdə autizmlilərə verilən idman təliminin bir qismi nümayiş etdirilib.

Görüşdə qeyd olunub ki, autizmlilərin reabilitasiyasında idmanın çox böyük rolu var. Müxtəlif idman növləri üzrə (stolüstü tennis, atletika, velosiped idmanı, bocce və s.) təlimlər keçirilir.

Tədbirdə təlimlər və yarışlar barədə məlumat verilib. Fərid Qayıbov autizmli uşaqların idman məşğələlərinə cəlb edilməsi və reabilitasiyasına diqqətin artırılması mövzusunda mütəxəssislərlə fikir mübadiləsi aparıb.

Görüş çərçivəsində bocce idman növünün kiçik təqdimatı da olub.

## Dördqat Olimpiya mükafatçımız uğurlarının sirlərini məktəblilərlə bölüşdü

Azərbaycanın qadın güləşçisi Mariya Stadnik Ukraynanın Lvov şəhərindəki liseylərdən birinin üçüncü sinif şagirdləri ilə görüşüb. İkiqat dünya çempionu məktəblilərlə şəxsi uğurunun sirlərini və iştirak etdiyi son 4 Yay Olimpiya Oyunlarının təəssüratlarını bölüşüb. O, çıxışında həyatda inadkar olmağın vacibliyini vurğulayıb.



Görüş zamanı şagirdlər M.Stadnikin Olimpiya medallarını və dünya çempionluğu kəmərini baxışdan keçiriblər. Həmçinin titullu güləşçi məktəblilərə sadə fəndləri praktik qaydada göstərib.

Qeyd edək ki, M.Stadnik bu yaxınlarda Dünya Güləş Birliyinin (UWW) saytına verdiyi açıqlamada 2024-cü il Paris Yay Olimpiya Oyunlarında da çıxış etmək istədiyini bildirib. Ali qurumun portalında qeyd olunub ki, çoxlarɪ 33 yaşlı və 2 uşaq anası olan M,Stadnikin karyerasını başa vuracağını gözləsə də, Mariya fərqli addım atıb.

Güləşçi davam qərarını belə izah edib: “Düşünürəm ki, nə qədər güləşmək istəyim varsa, mütləq bütün potensialımı göstərməliyəm. Bu qərarımı Tokiodan evə qayıdan kimi verdim. Bütün dostlarım və yaxınlarım mənə inanır. Oğlum karyeramı davam etdirməyimi çox istəyir və mənim güclü olduğumu deyir. 5 qat Olimpiya medalçısı olmağı çox istərdim. Hər medal həyat hekayəmin bir parçasıdır. Bu, mənim yolumun bir hissəsidir. Beynəlxalq Olimpiya Komitəsinin bayrağında 5 Olimpiya halqası var. Bu üzdən 5 Olimpiya medalı qazanmaqla yeni tarix yazmaq istəyirəm.

İl ərzində 4-5 yarışda iştirak etmək mənim üçün ideal göstəricidir. Yeganə məsələ Paris-2024 öncəsi orqanizmimin məşqlərə necə reaksiya verməsidir. 20 yaşdakı enerjimi kompensasiya edə biləcək qədər böyük təcrübəm var”.

Saytda qeyd olunub ki, titullu güləşçinin martın 28-dən aprelin 3-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək Avropa çempionatında iştirak etməsi gözlənilir.

Xatırladaq ki, əslən Lvov şəhərindən olan Mariya Stadnik 2009 və 2019-cu il dünya çempionatlarında, Bakı-2015 və Minsk-2019 Avropa Oyunlarında, 2008 - 2009, 2011, 2014, 2016 - 2018 və 2021-ci il Avropa çempionatlarında qızıl, London-2012 və Rio-2016 Yay Olimpiya Oyunlarında gümüş, Pekin-2008 və Tokio-2020-də isə bürünc medal qazanıb.

## Şəhid anası İzafət İsayevanın xatirəsinə ithaf



Ağdaşda bir ana vardı. Dərdi dağlardan da böyük Qəhrəman ana! İllərin kədəri, zərif köksündə, kövrək ürəyində qaysaq bağlamayan yaraya dönmüşdü. Şəhid anası, analar anası İzafət xanım. Dörd oğul itkisinin ağrı-acısıyla 84 yaşında dünyadan köçən zəhmətkeş, qayğıkeş, xanım-xatun ana! Sərbəst güləş üzrə Avropa və dünya çempionu Xəzər İsayevin və 1990-cı ilin 20 yanvarında Azərbaycanın azadlığı və suverenliyi uğrunda canını qurban vermiş gənc idmançımız, Ağdaşın qaranquş şəhidi Müşfiq İsayevin anasıdır, İzafət ana. Ağdaşda ömrünü pedaqoji fəaliyyətə sərf etsə də, övladlarının təhsil və tərbiyəsinə həmişə ciddi yanaşıb. Həyat yoldaşı Ağaəli müəllim cavan yaşında dünyasını dəyişərkən övladlarına analıq qayğısından savayı atalıq qayğısını da əsirgəməyib. Hələ bundan öncə böyük övladı Natiqi körpə yaşında torpağa tapşırıb.



Sonra sonbeşik övladı Müşfiqin acısı.. Yeddi övladından sonbeşiyinin taleyinə şəhidlik düşüb. Fələk taleyinə cəmi 21 bahar, 22 qış ömür payı yazıb pəhləvan Müşfiqin. İdmançılar arasında ən sürətli qaçış hərəkətinə malik imiş. Lakin 1990-cı ilin 19 yanvar gecəsi əcəlin əlindən qaça bilməyib. Hara qaçacaqdı, axı? Məgər o, düşmən qabağından qaçan oğullardan idimi? Əsla! Axı, İzafət ana Müşfiqi Vətənə şəhid vermək üçün dünyaya gətiribmiş. Müşfiq Sovet tanklarɪ önündə əllərindən çəpər çəkən anda ürəyinə tuşlanan zəhərli güllənin yanğısından idmançı dostunun qucağında “Ana!.. Ana!.. Ana!...” kəlməsiylə şəhadətə qovuşanda İzafət ana Ağdaşda oğlundan xəbərsiz imiş. Hətta Müşfiqi torpağa əmanət edərkən qanlı köynəyindən, şəhid cismindən çıxarılan güllədən də xəbərsiz olub İzafət ana. Qardaşlar bu tükürpədici mənzərəni dərdli anaya göstərməklə onun bağrını qana döndərmək istəməyiblər.

Övladlarının xeyir işini görüb, oğul toyu edib, qız köçürüb, İzafət ana, təkcə Müşfiqdən savayı. Sonbeşiyi üçün həvəslə sandıqda bəslədiyi nişan ləvazimatları Ağdaşın Şəhidlər Xiyabanında, onun məzarı üstə paylanıb. Qanlı Yanvar yarası, ananin sinəsinə çəkilən şəhid dağı yetməyib. Bütün ömrü boyunca bala dərdini çəkmək yazılıbmış taleyinə. Qəlbini göynədən nakam şəhid oğulun itkisinin ardınca isə qəfil ürək tutmasından dünyasını dəyişən böyük oğulları Zaur və Sadiq İsayevlərin itkisi... Kişi qeyrətli, dağ vüqarlı ana bu acılara da qatlaşıb, bu ağır itkilərlə də barışmalı olub, lakin Tanrıya şükrünü əsirgəməyib. Bir ana üçün övlad acısından böyük ürək dağı nə ola bilər ki, bu həyatda?Axı, hansı oğulun dərdini çəkəydi ana? “Dərd də gələndə batmanla gəlir”- deyib, atalarımız. Bir belə dərdə necə tab gətirirdi zərif ana ürəyi?

Bilirdim ki, Ağdaşda hamı şəhid anası İzafət xanıma “Analar anası” deyə, müraciət edərək ehtiramla yanaşır, qayğısına qalır, dərin hörmət bəsləyir. Ananın görüşünə getmək əlçatmaz arzularımdan biri idi. Onu da deyim ki, arzusunda olduğum məqama yetişmək üçün düşüncələr tərkində vurnuxduğum günlər də olub. Bu minvalla da şəhid anası İzafət xanımın əllərini öpmək üçün, eyni zamanda onun qəhrəman oğlu Müşfiqin məzarını ziyarət etmək üçün Ağdaşa, İsayevlər ocağına təşrif apararkən həmin ocaqdan da xoş təəssüratlarla dolu unudulmaz xatirələrlə ayrılmışdım. İşıqlı otaq, mehriban, güləruz, həddindən artıq qonaqpərvər, imanlı, səmimi, təmiz qəlbli, istiqanlı ailə üzvləri, divardan asılmış naxışlı xalça üzərindən boylanan pəhləvan Müşfiqin məsum baxışları, bir də şəhidimizin yağlı boya ilə çəkilmiş portreti illərin ağuşunda yaddaş tarixçəmdə heç zaman unudulmayacaq xoş xatirə kimi qalacaq. Eyni zamanda İzafət ananın nurani çöhrəsi, səmimi, xoş söhbətləri xəyalımdan silinməyəcək: “Hamı bilir ki, Müşü (Müşfiq) hər işi bacaran, qoçaq, ürəkli oğlan idi...”

Təəssüf ki, mənim həyatımda həmin gün İzafət anayla ilk və son görüşüm oldu... Bu həssas məqamda kövrək hisslərlə dərindən ah çəkməyə bilmirəm...

Bu günlərdə İzafət ananın gəlini İradə xanımın qayınanasına həsr etdiyi bir şeir keçib əlimə. Şeir bir neçə il bundan öncə yazılıb. Şeirdə ən səmimi hisslərlə ifadə edilmiş ürəkdən gələn təsirli misralar, duyğulu məqamlar diqqətimi çəkdi. Odur ki, şeiri oxuculara təqdim etmək qərarına gəldim:

İllər səni necə sınağa çəkdi,  
Zərif ürəyini gör bir neynədi.  
Ağarmış saçların bir də ağardı,  
Fikirdən, qüssədən belin büküldü.  
Əyilmə, ay Ana, dik tut başını!  
Taleyin işidir, neynəmək olar?!

İradə xanım şeirin altında qeyd edib: “Bu şeiri İzafət anaya həsr elədim. Bu gün 80 illiyi olacaqdı, amma biz bu günü qeyd edə bilmədik... Bir də bu şeir başlığı “İzafət” sözündən yaranıb. Hər sətir adına yazılıb.”İzafət anaya həsr edilmiş dərin məna kəsb edən, bu lirik məzmunlu şeiri oxuduqca kövrəlib, duyğulanmamaq, olmur.

Əslində mənim də İzafət anaya deyiləcək ürək sözüm çox idi. Lakin çox təəssüf ki, amansız əcəl fürsət vermədi... Bəlkə bu yazımı da məktub şəklində yaza bilərdim, ancaq düşündüm ki, məktubum nə İzafət ananın ünvanına çatacaq, nə də onu təhvil alıb, oxuya biləcək. Onu da deyim ki, İzafət ananın vəfatı məni həqiqətən də ürəkdən sarsıtdı, üzdü... Bəzən bu üzüntünün, sarsıntının necə ağır bir hiss olduğunu ifadə etməkdə sözlərim, kəlmələrim aciz qalır.

Qəhrəman, mərd oğullar dünyaya gətirən anaların Tanrı dərgahında yeri cənnətdir zatən. Düşünürəm ki, daha şəhid Müşfiqin də nakam ruhu fərəhləndi, Tanrı dərgahında anasına qovuşdu...

Allahdan İzafət anaya qəni-qəni rəhmət diləyir, ruhu qarşısında dərin ehtiram hissi ilə baş əyirəm.

Sizin əziz və unudulmaz xatirəniz yaddaşımızda əbədi yaşayacaq ey Qəhrəmanlar anası, möhtərəm İzafət xanım! Məzarınız nurla dolsun! Ödənməz haqqınızı bizə halal edin, anacan!

*Hörmətlə:*  
***Sevinc ƏDALƏTQIZI,***  
***Tədqiqatçı, publisist***



## Yığmamızın sabiq qapıçısı milli komandaya qayıdır

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Azərbaycan millisinin sabiq qapıçısı Kamran Ağayevlə görüşüb. E.Məmmədov karyerasını başa vuran 36 yaşlı qolkiperə təşəkkürünü bildirib və gələcək fəaliyyətində uğurlar arzulayıb. AFFA-nın təklifi ilə Kamran Ağayev qapıçı məşqçiləri üçün təşkil olunan müxtəlif kurslarda iştirak edəcək və milli komandalarda qapıçı məşqçisi kimi fəaliyyət göstərəcək.

Görüşdə assosiasiyanın vitse-prezidenti Vaqif Sadıqov və Texniki Departamentin rəhbəri Cahangir Həsənzadə də iştirak edib.

Qeyd edək ki, Kamran Ağayev Azərbaycan yığmasının heyətində 79 oyunda meydanda olub.

## Dünya çempionatı koronavirusa görə ləğv edildi

Bu il Yaponiyanın Kobe şəhərində keçirilməsi planlaşdırılan para-atletika üzrə dünya çempionatı ləğv edilib.

Beynəlxalq Paralimpiya Komitəsi (IPC) bu barədə milli paralimpiya komitələrinə məlumat verib.

## *Şahmatçımız “Praqa Open-2022” turnirinin qalibi oldu*

Azərbaycan şahmatçısı Çexiyada keçirilən “Praqa Open-2022” turnirində uğurla çıxış edib.

Təmsilçimiz Azər Mirzəyev 9 turda 7,5 xal toplayaraq yarışın qalibi olub. Onunla eyni xalı yığan polşalı Antoni Kozak ikinci pillədə qərarlaşıb. Çexiya təmsilçisi Yakub Vojta isə üçüncü yeri tutub.



Turnirdə 5-i qrosmeyster olmaqla, 185 şahmatçı iştirak edib.

İsveçrə sistemi üzrə keçirilən yarış 9 turdan ibarət olub.

## *Millimizin Gümüş Avropa Liqasındakı oyunlarının təqvimi açıqlanıb*

Kişi voleybolçular arasında Gümüş Avropa Liqasının 2022-ci il mövsümünün təqvimi açıqlanıb. Azərbaycan yığmasının oyunlarının vaxtı müəyyənləşib.

A qrupunda mübarizə aparacaq millimiz iki rəqiblə üz-üzə gələcək. İlk oyununda - mayın 28-29-da Macarıstanı qəbul edəcək komandamız iyunun 4-5-də Finlandiyanın qonağı olacaq.



Millimiz ikinci dövrəyə Finlandiya ilə ev matçı ilə başlayacaq. Qarşılaşmanın iyunun 11-12-də keçirilməsi nəzərdə tutulub. Son turda - iyunun 18-19-da yığmamız Macarıstanın qonağı olacaq.

Qeyd edək ki, Gümüş Avropa Liqasının “Dördlər finalı” iyunun 25-26-da keçiriləcək.

# 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə həkk olunub



***1990-cı ilin yanvar hadisələri nə qədər faciəli olsa da, xalqımızın iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. 20 Yanvar faciəsi Azərbaycan xalqının öz azadlığı və suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Odur ki, xalqımız 32 il əvvəl baş verən hadisələri təkcə ağrı-acı ilə deyil, həm də qürur və şərəf günü kimi xatırlayır.***

1980-ci illərin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşmişdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Regionda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi.





SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızın hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi xalqımızın ədalətsizliyə qarşı apardığı mübarizənin tərkib hissəsi idi. Sovet rəhbərliyi Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törətdi. Kütləvi iğtişaşların qarşısını almaq bəhanəsi ilə SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək və belə tədbir nəzərdə tutulmayıb. Ancaq xalqımız aldadılırdı. Çünki bu vaxt əlavə sovet hərbi birləşmələrinin Bakıya yeridilməsi başa çatmaqda idi.

Yanvarın 19-da axşam Azərbaycan televiziyasının enerji bloku partladıldı. Bu, ona görə edildi ki, Azərbaycan xalqı Bakıda nə baş verdiyini bilməsin. Sonradan 20 Yanvar faciəsini araşdıran dövlət komissiyası tərəfindən sübut edilmişdir ki, həmin partlayış Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən planlaşdırılaraq həyata keçirilib.

Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet əsgərləri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyot və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. Sonrakı günlər də daxil olmaqla, bu hücum nəticəsində 132 nəfər həlak olmuşdur ki, onlardan da 123-ü kişi, 5-i qadın, 4-ü uşaq idi. Həlak olanların arasında 4 polis işçisi, 1 həkim, 1 aspirant, 3 elmlər doktoru olub. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi. Bu insanların heç birinin günahı yox idi. Onlar doğma vətənimizin azadlığına və müstəqilliyinə qənim kəsilən sovet rəhbərliyinə etiraz etmək üçün küçələrə çıxmışdılar. Bu insanların heç biri silahlı deyildi. Xalqımız əliyalın halda öz etirazını bildirirdi.

Bakı şəhərində 20 yanvar tarixindən etibarən fövqəladə vəziyyət tətbiq olunması haqqında 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-dan zirehli maşınlardan xalqa elan edilirdi. Yəni dinc insanlar vəhşicəsinə qətlə yetirildikdən sonra fövqəladə vəziyyət barədə məlumatlar yayılırdı. Bununla belə, fövqəladə vəziyyətin elan olunduğu gün - yanvarın 20-də daha 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələndi. O zaman Moskvada yaşayan ümummilli lider Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, heç nədən çəkinməyərək yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi. Burada mətbuat konfransı keçirən Heydər Əliyev, başda Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Xalqımızın böyük oğlu bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi və 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli lider 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirdi. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz ulu öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq hüzn günü elan olundu.

Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi.

Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib. 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə verilən aylıq müavinətin artırılması bir daha sübut edir ki, vətənimizin müstəqilliyi uğrunda canından keçənlər heç vaxt unudulmur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi səviyyəsinin yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha aydın göstərir.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsidir. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb.

2006-cı il yanvarın 19-da "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərman





20 Yanvar şəhidlərinin ailələrinin maddi vəziyyətinin yaxşılaşdırılmasına zəmin yaratdı. Ölkə başçısının Fərmanı ilə "20 Yanvar şəhidi" fəxri adı almış 140 nəfər şəxsin 180 nəfər ailə üzvünə Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa, əlavə ödəniş verilir.

Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Bu mənzillər 20 Yanvar şəhidlərinin ailələrinə, əlillərə də verilir. Əlillərin sağlamlığının bərpası da dövlətimizin diqqət mərkəzindədir. Vətənimizin müstəqilliyi uğrunda mübarizədə əlil olan insanların sağlamlıqlarının bərpası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının yaxınlığında xatirə kompleksinin yaradılması oldu.

Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında inşasına başlanılan memorial abidə kompleksinin açılış mərasimi 2010-cu il yanvarın 20-də həyata keçirildi.

Bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Heydər Əliyev Fondu da müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlıqlarının bərpası istiqamətində mühüm işlər görür.

Heydər Əliyev Fondunun xalqımızın tarixinə, tarixi hadisələrinə həssas münasibəti də xüsusi qeyd olunmalıdır. Belə ki, Fondun təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlər hər yerdə böyük əks-səda doğurub. Bundan başqa, Qarabağ münaqişəsi, xalqımızın tarixi yaddaşı ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib. Bu layihələr xalqımıza qarşı törədilən ağılasığmaz cinayətlərin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətlərə hüquqi-siyasi qiymətin verilməsinə nail olunması istiqamətində böyük əhəmiyyət kəsb edir.

Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır. Hazırda məhz belə bir inamı Azərbaycan Prezidenti İlham Əliyev xalqımızda və gənclərimizdə yarada bilmişdir.

Xalqımızın tarixində faciəli günlər yetərincədir. Əsrlər boyu yadelli düşmənlərin göz dikdiyi Vətənimiz işğallara və təcavüzlərə məruz qalıb. Lakin qəhrəman Azərbaycan xalqı buna baxmayaraq qürur və mətinliyini əldən verməyib.

İllər keçəcək, nəsillər dəyişəcək, amma tarix unudulmayacaq. Heç bir azərbaycanlı başımıza gətirilən faciələri unutmayacaq.

Artıq bu gün şanlı tariximizdə yeni bir səhifə, yeni bir tarix yazılıb.

28 ildən sonra Azərbaycan öz tarixi torpaqlarını geri aldı. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan ordusu dünyaya sübut etdi ki, bu torpaqların əsl sahibi elə bu torpaqlarda da yaşamalıdır.

Cənab prezident mötəbər kürsülərdə çıxış edərək, Qarabağın Azərbaycan torpağı olduğunu dünya dövlətlərinin və cəmiyyətlərinin diqqətinə çatdırdı. Düşmən təkcə hərb meydanında deyil, siyasi arenada da məğlubiyyətə uğradı.

Bu, cənab Prezidentin XXI əsr dünya siyasətində möhtəşəm bir qələbəsidir. Ölkə başçısının yürütdüyü uzaqgörən siyasət, xalqımızın rifahının yüksəldilməsinə göstərdiyi diqqət və qayğı sayəsində biz böyük zəfər qazandıq. Hər birimiz Azərbaycana bütövlük, xalqımıza xoşbəxtlik bəxş etdiyinizə görə Ali Baş Komandan İlham Əliyevə minnətdarıq.

Artıq Qarabağ azaddır. İllərdən bəri əsarətdə qalan torpaqlarımız, Qarabağın tacı olan Şuşa bizimdir. Qarabağ Azərbaycandır!

Biz inanırıq ki, tezliklə həmin torpaqlar ən inkişaf etmiş bölgəyə çevriləcək. Xalqımız cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya inanır, bu işdə daim onları dəstəkləyir.

***Dilqəm Quliyev,***
***pedaqogika üzrə elmlər doktoru, professor***





# “Soyuq olimpiada” həyəcanı ilə döyünən isti ürəklər

## Şamonidən başlayan yol bu dəfə Pekindən keçir

İlin ən mötəbər idman tədbirlərindən biri olan Qış Olimpiya Oyunlarına az bir vaxt qalır. Dünyanın ən güclü idmançıları 4 illik fasilədən sonra bu dəfə Çin paytaxtında qələbə uğrunda yarışacaqlar. Gərgin və maraqlı keçən “soyuq olimpiada”da bizi yeni idman uğurları, yeni rekordlar və maraqlı hadisələr gözləyir. İdman nəşrləri arasında bütün yarışları geniş və zəngin faktlarla çoxsaylı oxucularına çatdıran “Olimpiya dünyası” qəzeti bu sayından etibarən Qış Olimpiya Oyunları ilə bağlı silsilə yazılara start verir. Qəzetimizin bu sayında biz indiyə qədər, daha doğrusu, ilk Qış Olimpiya Oyunlarından Pekin Olimpiadasına qədər baş vermiş ən maraqlı hadisələri bir araya toplamışıq. Bu yazıda oxucular maraqlı məlumatlarla tanış olacaqlar. Eyni zamanda qış idman növləri haqqında dəqiq faktları da əldə edə biləcəklər.



## Qeyri-adi hadisələr Olimpiadaya bir başqa rəng qatır

1924-cü ildə Fransanın Şamoni şəhərində keçirilən I Qış Olimpiya Oyunlarından 2018-ci ildə Cənubi Koreyanın Pxençxan şəhərində təşkil olunan XXIII Olimpiadaya qədər minlərlə maraqlı hadisələr baş verib. İstər yarış zamanı, istərsə də kənarda baş verən qeyri-adi hadisələr hələ də öz əhəmiyyətini və gündəmini itirməyib. Onların hər biri haqqında geniş məqalə, hətta film ssenarisi hazırlamaq olar.

- Qış Olimpiya Oyunlarının ən yaşlı mükafatçısı Anders Hauqendir. 1924-cü ildə Şamonidə keçirilən Oyunlarda iştirak edən xizəkçi düz 50 ildən sonra bürünc medala yiyələnib. Halbuki Norveç əsilli amerikalının tullanışını həmin vaxt hakimlər səhv hesablamışdılar. Belə ki, onun rəqibi Torleyf Heyuqaya 0,179 əlavə bal verilmişdi. Yarım əsrdən sonra bu nəticə yenidən araşdırılmış, Hauqen Qış Olimpiya Oyunlarının ən yaşlı mükafatçısı adına layiq görülmüşdü.



- 1930-cu ildə dünya çempionatının 10 medalını və Olimpiya çempionu titulunu qazanan Klaes Karppinen (Qarmiş-Partenkirhen-1936) karyerası ərzində bir dəfə də olsun Finlandiya çempionu adını qazana bilməyib.

- Finlandiyalı Kalle Calkanen 1936-cı ildə xizəksürmənin estafet yarışında qızıl medala layiq görülüb. Maraqlıdır ki, o, yarış zamanı tüpürərkən diş protezini ağzından salıb. Kalle bu hadisəyə əhəmiyyət verməyərək finişi bütün rəqiblərindən tez keçib.

- Oslo-1952-nin gümüş, Kortina-d Ampetso-1956-nın qızıl mükafatçısı, finlandiyalı xizəkçi Mirya Xietamies karyerasını erkən başa vuraraq, avtobus sürücüsu işləyib.

- Xizəksürmə üzrə üçqat Olimpiya çempionu Xeykki Xasu 1953-cü ildə 27 yaşında olarkən böyük idmanla vidalaşıb. Karyerasının çiçəkləndiyi dövrdə o özünə məxsus olan fermada işləməyə üstünlük verib.

- 1960-cı ildə Skvo-Velli (Kaliforniya) Olimpiadasında rəsmilər slalom yarışlarındakı nəticələrlə razılaşmayaraq, CBS TV-yə müraciət ediblər. Onlar yekun qərarı vermək üçün yayımı bir neçə dəqiqə dayandıraraq, təkrarlara baxıblar.

- 1964-cü ildə İnsbrukda keçirilən Qış Olimpiya Oyunları zamanı təşkilatçılar qar yağıntısı problemi ilə üzüzə qalıblar. Bunun üçün Avstriya ordusunun köməyindən istifadə olunub. Belə ki, əsgərlər yarışların keçirildiyi əraziyə 50 milyard həcmində kubşəkilli qar gətiriblər.

- 1984-cü ildə britaniyalı cütlük Ceyn Torvil və Kristofer Dinin iştirakı ilə keçirilən “Bolero” fiqurlu konkisürmə proqramını 24 milyon azarkeş izləyib.

- Alverbil-1992 Qış Olimpiya Oyunlarına qədər fristayl növü “hotdoqqinq” adlanırdı.

- Naqano-1998 Qış Olimpiya Oyunlarının dağ xizəyi üzrə Olimpiya çempionu Pikabo Stritin adı Aydaxo şəhərində yerləşən San-Valli kurortundakı küçəyə verilib. Küçə “Pikabos Strit” adlanır.

- 1998-ci il Naqanoda keçirilən olimpiadada dağ xizəyi yarışları böyük çətinliklərlə keçirilib. Səbəb kimi dağlarda yağıntının normadan artıq olması göstərilib.

- Amerikalı dağ xizəkçisi Mikaela Şiffrin 2018-ci ildə Pxençxanda təşkil olunan Olimpiya oyunlarına 35 cüt xizək gətirmişdi.

## “Ağ olimpiada” Yay olimpiadasından heç də geri qalmır

Qış idman növlərinin hər biri özünəməxsusluğu ilə seçilir. İdman azarkeşlərinin əksəriyyəti düşünür ki, maraq baxımından Qış olimpiadası yay olimpiadasından heç də geri qalmır. İdman növlərinə görə üstün olan “ağ olimpiada”da mübarizə həm çətin, həm də maraqlı keçir. Qış olimpiya idman növlərinin qeyri-adi tarixçəsi və xüsusiyyətləri diqqətdən kənar qalmır.

- Dünyada ilk dəfə bobsley idman növü üzrə ilk klub 1897-ci ildə İsveçrənin Sankt-Morris şəhərində açılıb.

- 1924-cü ildə Şamonidə keçirilən I Qış Olimpiya Oyunlarında 16 ölkədən 268 idmançı mübarizə aparıb. Pxençxan-2018-də isə 92 ölkədən 2925 idmançı fəxri mükafatlar uğrunda yarışıblar.

- Norveçli Sondre Norheym tramplindən tullanma idman növünün yaradıcısıdır. O, 1866-cı ildə ilk dəfə olaraq dünya çempionu adını qazanıb. Biatlon yalnız 1960-cı ildə Olimpiya idman növü kimi tanınıb. Buna qədər 1924-cü ildə bu cür yarışlar hərbi patrullar arasında keçirilirdi.

- 1976-cı ildə İnsbrukda təşkil olunan Oyunların rəsmi talismanı “Schneemann” (alman dilində “qar adamı”) adlanıb.

- Xizək baleti ilk dəfə Kalqari-1988 və Alverbil-1992 Qış Olimpiya Oyunlarında nümunəvi idman növü kimi təmsil olunub.

- Çinli Yan Yan 500 metr məsafəyə şort trek növündə Solt-Leyk-Siti-2002-nin qızıl medalını qazanaraq, öz ölkəsinin idman tarixinə düşüb.

- Qış idman növü olan “skid” (xizək) sözü ilkə dəfə Skandinaviyada yaranıb. Hərfi tərcümədə “qədim çubuq” mənasını verir.

- Qış idman növlərindən biri olan kerlinq ingilis dilindən tərcümədə (“curl”) buz üzərində sürüşmə və dönmə mənasını verir.



- Olimpiya hokkeyinin şaybası vulkanlaşdırılmış rezindən hazırlanır. Şaybanın həcminin standart qalması üçün hər oyundan əvvəl o yüksək dərəcəli soyuducuda dondurulur.

- Kerlinqdə istifadə olunan daşlar nadir tapılan sıxılmış qranitdən hazılanır. Həmin qranitə yalnız Şotlandiyanın Eyls-Kreyq adasında rast gəlinir.

- Hokkey fransız dilindən “Hocquet” sözündən götürülüb, mənası “əyilmiş köhnə əsa” deməkdir.

- “Biatlon” sözü yunan mənşəlidir. Dilimizə tərcümədə “iki yarış” mənasını verir. Qeyd edək ki, biatlonçular xizək yürüşündə və atıcılıqda mübarizə aparırlar.

- Qış Olimpiya idman növləri arasında ən sürətli idman növü kirşəsürmədir. Yarış zamanı maksimal sürət 144 km/saatdır.

## Yenilənməyən rekordlar və dəyişməz faktlar

Hər bir idman yarışında nəticələr əsas rol oynayır. Qalib adı uğrunda mübarizə aparan idmançılar çalışırlar ki, onların qələbələri əlçatmaz olsun. Bu amil Olimpiya Oyunlarından da yan keçmir. Gərgin və maraqlı keçən yarışlarda qeydə alınan “ilk”lər və rekordlar bir idmançı üçün çempionluq qədər vacibdir. İndiyə qədər təşkil olunan Qış Olimpiya Oyunlarında saysız-hesabsız rekordlar qeydə alınıb. Bundan əlavə elə faktlar var ki, bu günə qədər də dəyişməz qalır.

- Fiqurlu konkisürmə və hokkey ilk dəfə London-1908 və Antverpen-1920 Yay Olimpiya Oyunlarında debüt edib.

- Amerikalı Edqar İqan Yay və Qış Olimpiya Oyunlarında iştirak edən yeganə Olimpiya çempionudur. Belə ki, o, 1920-ci ildə Antverpendə keçirilən VII Yay Olimpiya Oyunlarında yarımağır çəkidə boks yarışlarının qalibi olub. 10 il sonra (Leyk-Plesid-1932) Qış Olimpiya Oyunlarında bobsley növü üzrə yarışlarda dördüncü yeri tutub.

- Şamoni-1924 Qış Olimpiadası rəsmi olaraq Qış İdman Növləri Həftəsi adlandırılmışdı. Sonradan BOK həmin sənəddə dəyişiklik etmişdi.

*(ardı 5-ci səhifədə)*





# "Soyuq olimpiada" həyəcanı ilə döyünən isti ürəklər

(əvvəli 4-cü səhifədə)

- İlk Qış Olimpiya Oyunları kimi tarixə düşən Şamoni-1924-də 13 qadın idmançı iştirak edirdisə, Pxençxan-2018-də bu say 1242 olub.

- 1936-cı ildə Almaniyanın Qarmiş-Partenkirhen şəhərində keçirilən oyunlarda Sesiliya Kollec olimpiada tarixinin ən gənc iştirakçısı olub. Böyük Britaniyalı fiqurlu konkisürənin həmin vaxt 11 yaşı var idi.

- 1952-ci ildə Osloda keçirilən oyunlarda ilk dəfə komputerdən istifadə olunub. Təşkilatçılar fiqurlu konkisürmə yarışlarının nəticələrini bu yolla müəyyənləşdirməyə çalışıblar.

- İtaliyalı dağ xizəkçisi Culyana Çenal-Minutso Kortina-D Ampetso-1956-da Olimpiya andını qəbul edən ilk qadın idmançı kimi tarixdə yer alıb.

- Olimpiya oyunlarında məşəl estafeti ilk dəfə İnsbruk-1964 Olimpiadasında keçirilib. Bu isə rəsmi olaraq IX olimpiadaya təsadüf edib.

- Qış Olimpiya Oyunlarının ilk talismanı 1968-ci ildə Qrenoblda keçirilən olimpiadada seçilib. Lakin "Şuss" ləqəbli talisman rəsmi olaraq qəbul olunmayıb.

- 1968-ci ildə Qrenoblda keçirilən X Qış Olimpiya Oyunları tarixdə ilk dəfə rəngli formatda televiziya vasitəsi ilə yayımlanıb.



- Qış Olimpiya Oyunlarının ən yüngül məşəli Sapporo-1972 Olimpiadasında olub. Məşəlin çəkisi 460 qram idi.

- Yaponiya Sapporo-1972 Qış Olimpiya Oyunlarına qədər qızıl medal əldə edə bilməyən ölkələr sırasında yer almışdı. Məhz doğma azarkeşlər önündə keçirilən olimpiadada Yukio Kasaya normal yamacdan tullanma yarışlarında qızıl medala sahib çıxıb.

- Olimpiya Oyunlarında ilk dəfə süni qardan Leyk-Plesid-1980 Olimpiadasında istifadə olunub.

- İsveçli Yan Boklev 1985-ci ildə tramplindən tullanmada xizəklə "V" hərfini yazan ilk idmançı kimi tarixə düşüb. Həmin vaxt idmançının bu hərəkət tərzini bəyənməsələr də, 1992-ci ildən etibarən bütün idmançılar eyni hərəkəti təkrar edirlər.

- Debra Janin "Debi" Tomas Qış Olimpiya Oyunlarında mükafat qazanan ilk qaradərili idmançı olub. Belə ki, Kalqari-1988-də fiqurlu konkisürmə yarışlarında fərdi çıxışda bürünc medala yiyələnib.




- "Uçan fin" ləqəbli Matti Nikanen tramplindən tullanma yarışlarında rekord nəticə göstərib. O, Kalqari-1988 Olimpiadasında çıxış etdiyi növdə hər üç medala layiq görülüb.

- 1992-ci ilə qədər Yay və Qış Olimpiya Oyunları eyni ildə təşkil olunurdu.

- 1992-ci ildə Alverbildə təşkil olunan Qış Olimpiya Oyunlarında konkisürmə yarışları tarixdə ilk dəfə açıq hava altında keçirilib.

- Yeni Zelandiyalı Anneliz Koberger cənub yarımkürəsini təmsil edən və mükafat qazanan ilk idmançıdır. 1992-ci ildə Alverbildə keçirilən XVI Olimpiya Oyunlarının dağ xizəyinin slalom yarışlarında bürünc medala sahib çıxıb.

- Beynəlxalq Olimpiya Komitəsi qadınlara ilk dəfə Soçi-2014-də tramplindən tullanma yarışlarında iştirak icazəsi verib.

- Olimpiya Oyunları tarixində ilk dəfə olaraq Soçi-2014-ün məşəli Beynəlxalq Kosmik Stansiyaya göndərilib. Həmin məşəli kosmonavt Oleq Kotov orbitə çıxarmışdı.

- Yaponiyalı tramplindən tullanan Noriaki Kasai Qış Olimpiya Oyunlarında ən çox iştirak edən idmançıdır. "Gündoğar ölkə" təmsilçisi karyerası ərzində 8 fərqli olimpiadada (Alverbil-1992-dən Pxençxan-2018-ə qədər) çıxış edib.

- Dörd il əvvəl keçirilən Pxençxan-2018 Qış Olimpiya Oyunlarında ilk dəfə Ekvador, Eritreya, Kosovo, Malayziya, Nigeriya və Sinqapur yığma komandaları debüt ediblər.

- Amerikalı qadın hokkeyçi Joslin Amure Qış Olimpiya Oyunlarında rəqib qapısına ən tez iki şayba vuran idmançıdır. Pxençxan-2018-də o, 6 saniyə fərqlə rekorda imza atıb.



- Pxençxan-2018-də iştirak edən tonqalı xizəkçi Pita Taufatofua bu vaxta qədər Qış Olimpiya Oyunlarında Sakit Okean adalarını təmsil edən ikinci idmançıdır. Pita eyni zamanda Rio-2016 və Tokio-2020 Yay Olimpiya oyunlarında Tonqanı taekvondo yarışlarında təmsil edib.

- Snoubord yarışlarının qızıl medalını qazanan amerikalı Xloya Kim ən gənc Olimpiya çempionu sayılır. Pxençxan-2018 Qış Olimpiya Oyunlarında iştirak edərkən onun 17 yaşı var idi.

- Çexiyalı Ester Ledeçkaya Qış Olimpiya Oyunları tarixində ilk idmançıdır ki, bir olimpiadada iki idman növündə qızıl medal əldə edib. Pxençxan-2018-də Ester dağ xizəyi və snoubord yarışlarında Olimpiya çempionu adını qazanıb.

- Amerikalı snoubordçu Xloya Kim Pxençxan-2018-də çıxışı zamanı sosial şəbəkələrdə izləyici sayını artırmışdı. Belə ki, oyunlardan sonra onun adına açılmış "feysbuk", "instaqram" və "tvitter" səhifəsini 927,070 nəfər izləmişdi.

- Beynəlxalq Olimpiya Komitəsi Yay Olimpiya Oyunlarında basketbol 3x3 yarışlarını test etdikdən sonra Yeniyetmələrin Qış Olimpiadasında (Lozanna-2020) hokkeyin 3x3 növünü sınaqdan keçiriblər.

- Milan və Kortina-D Ampetso 2026-cı ildə olimpiadaya ev sahibliyi edəcək. Bu olimpiada yubiley tədbiri olacaq. Belə ki, 70 il əvvəl bu şəhər VII Qış Olimpiya Oyunlarını (1956) qəbul edib. Məlumat üçün bildirək ki, bundan əvvəl İtaliyada 3 dəfə (qış: Kortina-D Ampetso-1956, Turin-2006; yay: Roma-1960) olimpiada keçirilib.

- Norveç Qış Olimpiya Oyunlarında iştirak edən bütün ölkə yığmalarından daha çox medala sahib çıxıb. Skandinaviya təmsilçiləri indiyə qədər 405 medal (142 qızıl, 141 gümüş və 122 bürünc) əldə ediblər.

- Norveçli Mari Byorgen xizək yarışlarında ən çox medal qazanan idmançıdır. İştirak etdiyi Olimpiya oyunlarında o, 15 (8 qızıl, 4 gümüş, 3 bürünc) medal qazanıb.

- Qış Olimpiya Oyunları heç vaxt cənub yarımkürəsində keçirilməyib.

- ABŞ Qış Olimpiya Oyunları tarixində yeganə ölkədir ki, bütün olimpiadalarda qızıl medal qazanıb.

- Almaniyalı Natali Hayzenberger Olimpiya Oyunları tarixində ən titullu idmançılardan biridir. O, kirşəsürmədə 4 qızıl və 1 bürünc medalın sahibidir.

- Avstriya, Kanada, Finlandiya, Fransa, Böyük Britaniya, Macarıstan, İtaliya, Norveç, Polşa, İsveç, İsveçrə və ABŞ yığma komandaları indiyə qədər keçirilən bütün Qış Olimpiya oyunlarında iştirak ediblər.

- Olimpiya oyunlarında qadın hokkeyi üzrə yarışlarda 6 final qarşılaşmasında 5-də ABŞ və Kanada yığmaları üz-üzə gəliblər.

## "Gündoğar ölkə" olimpiadaya necə hazırlaşıb?

Çin hökuməti oyunların təşkili üçün bütün qüvvə və bacarıqlarını səfərbər edib. 14 il əvvəl Yay Olimiya Oyunlarına yüksək səviyyədə ev sahibliyi edən və təşkilatçılıq baxımından nümunə kimi göstərilən idman obyektləri bu dəfə Qış Olimpiya Oyunlarına xidmət göstərəcək. XIV Qış Olimpiya Oyunlarından bəhs edən faktları və maraqlı məqamları diqqətinizə çatdırırıq.

- Pekin Oslo-1952-ci ildən sonra Qış olimpiya Oyunlarına ev sahibliyi edəcək paytaxt şəhərdir.

- Çin hökuməti Pekin-2008 Yay Olimpiya oyunları üçün inşa edilmiş 5 idman qurğusundan Pekin-2022-də istifadə edəcək.

- Çin hökuməti Pekin-2008 Yay Olimpiya Oyunlarındakı "Sulu kub" kompleksini bu il keçiriləcək qış olimpiadasına hazırlayıblar. Oyunlar zamanı kompleks "buzlu kub" adlanacaq.

- Lillehammer-2016 Yeniyetmələrin Qış Olimpiya Oyunlarından sonra uğurlu debüt edən iki idman növü Pekin-2022-nin proqramına salınıb. Belə ki, idmançılar monobob və fərdi bobsley növündə yarışacaqlar.

- Pekin-2022 Qış Olimpiya Oyunlarının rəsmi məşəli çin dilindən tərcümədə ("fen yan") "uçan" mənasını verir.

- Pekin-2022 Qış Olimpiya Oyunlarının talismanı olan pandanın adı "Bin Dun Dun"dur. Dilimizə tərcümədə "bin" buz (paklıq və güc), "Dun Dun" isə uşaqları deməkdir.

- Pekin-2022 Qış Olimpiya Oyunlarının emblemində çin heroqlifi ilə "qış" sözü yazılıb. Rəssam Lin Çunjen tərəfindən çəkilən loqotipdə eyni zamanda bir neçə idman növü və idmançı silueti yer alıb.

- Pekin-2022 Qış Olimpiya Oyunlarının skeleton yarışlarında iştirak edən idmançılar tarixdə ilk dəfə 180 dərəcəlik döngəli trassda yarışacaqlar.

- Pekin-2022-nin proqramına 7 yeni idman növü daxil edilib. Onlardan 4-ü qarışıq növlərə (kişilər və qadınlar) aiddir.

- Pekin-2022-nin biq-eyr yarışlarının keçiriləcəyi Şoqen xizək tramplinin hündürlüyü 60 m, uzunluğu 164 m olacaq.

*Ardı var...*

***4-5-ci səhifələri hazırladı: Anar Əhmədov***

İdman cəmiyyətlərində



# "ZENİT" BTİCİB-də gələcəyin peşəkar boksçuları yetişir

*Bu yaxınlarda Ukraynanın İvano-Frankovsk şəhərində boks üzrə İqor Qaydamakinin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib. Sayca ikinci dəfə təşkil olunan yarışda Azərbaycanla yanaşı, Ukrayna, Polşa, Çexiya, Macarıstan, Moldova, Belarus, İsrail, Özbəkistan və Slovakiya komandalarını təmsil edən 384 boksçu iştirak edib. Ölkəmiz yarışda 12 idmançı ilə təmsil olunub. Onlardan 11-i "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin (BTİCİB) boksçuları olub. Yeniyetmə və gənc boksçuların mübarizəsində "Zenit"in 6 boksçusu mükafatçılar sırasında yer alıb. Boksçularımızdan Mehran Rəsulov (63,5 kq) turnirin qalibi olaraq qızıl medala layiq görülüb. O, həmçinin turnirin ən yaxşı boksçusu kimi təşkilatçılar tərəfindən xüsusi hədiyə ilə mükafatlandırılıb. İdman Cəmiyyətinin digər yetirmələrindən Namid Şanena (48 kq), Həsən Əhmədzadə (70 kq), Hüseyn Orucov (50 kq), Səccad Nəsir (54 kq) və Hüseyn Məmişov (57 kq) isə bürünc medallara layiq görülüblər.*

Bu günlərdə Ukrayna sınağında uğur qazanan boksçularımızdan



bir neçəsi və onların məşqçisi Azərbaycanın Əməkdar məşqçisi Ceyhun Rüstəmov redaksiyamızın qonağı olub.

Qeyd edək ki, C.Rüstəmov məşqçilik fəaliyyətinə 2001-ci ildən Azərbaycan Müdafiə Nazirliyinin "Ordu" İdman Klubunda başlayıb. 2004-2007-ci illərdə məşqçilik fəaliyyətini kişilərdən ibarət milli komandanın bazasında baş məşqçi köməkçisi kimi davam etdirib. 2007-ci ildən "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyində çalışır. İdman cəmiyyətinin boksçuları baş məşqçi Təvəkkül Məmmədov və Ceyhun Rüstəmovun rəhbərliyi altında ölkədaxili və beynəlxalq arenalarda nailiyyətlər qazanıblar. Onların arasında ölkədaxili çempionatlarla yanaşı, dünya kubokunun mükafatçısı və Avropa çempionatlarının iştirakçıları da var. Söhbətimizə idman cəmiyyətinin boksçuları haqda məlumatla başlayan Ceyhun Rüstəmov burada hazırda üç qrupun günün müxtəlif saatlarında məşq keçdiyini bildirdi.

"Hazırda "Zenit"də boks üzrə iki məşqçi çalışır. Baş məşqçi kimi, Azərbaycanın Əməkdar məşqçisi Təvəkkül Məmmədov və məşqçi kimi mən boksçulara bu idman növünün sirləri haqda məlumat veririk. Səhər, günorta və axşam qruplarımız var. Zalımızda kiçikyaşlı yeniyetmələr, yeniyetmələr, gənclər və yaşı 18-dən yuxarı olan qruplarımız məşq keçir. Hər qrupda isə minimum 10-12 boksçu var. Düzünü desəm, pandemiya şəraiti idmançılarımızın çıxışlarına bir qədər təsir etdi. Boksçularımız təxminən il yarımdan çox idmandan uzaq qaldılar. Bu hal idmançılarımıza fiziki, texniki-taktiki və psixoloji olaraq da öz təsirini göstərdi. Bəzi idmançılarımız karyeralarının ən yaxşı və parlaq dövrlərini itirdilər. Boksda elədir ki, yeniyetmələr arasında yarışlarda iştirak etmədən gənclər arasında çıxış etmək çox çətindir. Bir neçə boksçumuz var ki, onlar bu mərhələni adlamadan birbaşa gənclərin yaş kateqoriyasına keçdilər. Hər şey mərhələli şəkildə olmalıdır. Belə olan halda istənilən uğura nail olmaq mümkündür. Bu gün artıq məşqlərimiz bərpa olunub. Karantin qaydalarına əməl edərək məşq prosesimizi keçirik. Düzdür, hələ ki, yaranan çətinlikləri tam olaraq aradan qaldırmaq mümkün olmayıb. Amma çalışacağıq ki, bu problemlərin həllinə nail olaq və idmançılarımız bu müddət ərzində itirdikləri əvvəlki formalarına geri qayıtsınlar. Hesab edirəm ki, bunun üçün bizə yaxşı məşq prosesi və bir neçə yarış kifayət edəcək. Artıq idmançılarımız bir neçə yarışda iştirak ediblər. Yeniyetmə boksçularımız Ukraynada, böyüklərdən ibarət dəri əlcək ustalarımız isə bu yaxınlarda başa çatan kişilər arasında Azərbaycan çempionatında iştirak etdilər. Cəmiyyətimizin boksçularından Ramazan Abdullayev (60 kq) və Elməddin İsmayılov (67 kq) turniri bürünc medalla başa vurdu. Qeyd edim ki, hər iki idmançının şəxsi məşqçisi Əməkdar məşqçi Təvəkkül Məmmədovdur", - deyə Ceyhun müəllim bildirdi.

Ceyhun Rüstəmov söhbət zamanı "Zenit"in idmançılarının Ukraynada təşkil olunan boks üzrə beynəlxalq turnirdəki uğurlu çıxışından da danışdı. Təcürbəli mütəxəssis turnirin idman cəmiyyətinin yeniyetmə boksçularının ustalıq səviyyəsinin artırılması baxımından çox mühüm olduğunu vurğuladı. "Vaxtilə Ukrayna Boks Federasiyasının rəhbəri olmuş İqor Qaydamakinin xatirəsinə həsr edilən bu yarış 2019-cu ildən təşkil olunur. Boksçularımız ikinci dəfə keçirilən turnirdə geniş heyətlə təmsil olundular. Yarışa yollanan idmançılarımızdan 6-sı mükafatçılar sırasında yer aldı. Biz yarışa təkcə medal qazanmaq üçün deyil, hazırlıq səviyyəmizi daha da yaxşılaşdırmaq və təcrübə qazanmaq üçün getmişdik. Belə turnirlərdə qazanılan təcrübə isə bizə daha böyük yarışlarda mükafatçılar sırasında yer almaqda kömək olacaq.



Məhz bu baxımdan turnir idmançıları sınaqdan keçirmək üçün əla bir fürsət oldu. İki ilə yaxın fasilə olmasına baxmayaraq boksçularımız bu turnirdə çox böyük həvəslə və uğurla iştirak etdilər. Məşqçi kimi onların bu uğurunu yüksək qiymətləndirirəm. Ən azından onlar yeni idmançılarla qarşılaşdılar və bu da boksçularımız üçün fərqlilik oldu. Növbəti aylarda da idman cəmiyyətinin boksçularının bu cür yarışlarda iştirakı nəzərdə tutulur. Qeyd edim ki, yarışdan qayıtdıqdan sonra "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov idmançıları qəbul etdi. Fazil müəllim, boksçuları qazanılan qələbə münasibəti ilə təbrik edərək, onlara gələcək yarışlarda uğurlar arzuladı. Fürsətdən istifadə edib, bizə yaratdığı şəraitə və dəstəyə görə Fazil müəllimə öz adımdan və boksçularımız adından minnətdarlığımı bildirirəm", - deyə Ceyhun müəllim qeyd etdi.

Ceyhun Rüstəmov həmçinin idmançıların çıxışlarına da toxundu. O, bu yarışda boksçulardan razı qaldığını, buraxılan səhvlərin üzərində daha yaxşı məşq edəcəklərini bildirdi.

"2005-2006-cı illər təvəllüdlü boksçular arasında mübarizə aparan idmançımız Hüseyn Məmişov yarışa 1/4 finaldan başladı. O, ilk görüşünü rumıniyalı boksçuya qarşı keçirdi. Ən çətin rəqiblər demək olar ki, onunla düşmüşdü. O, ilk döyüşdə qalib gələrək mərhələ adlasa da, sonrakı döyüşdə güclü Ukrayna boksçusuna məğlub olaraq bürünc medala sahib çıxdı. Qeyd edim ki, yarışda Ukraynanın birinci nömrəli idmançıları da iştirak edirdilər.

Digər idmançımız Hüseyn Orucov isə 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında mübarizə apardı. 50 kq çəki dərəcəsində yarışan Hüseyn turnirdə üç döyüş keçirdi. Mübarizəyə 1/8 finaldan başlayan idmançımız yarımfinalda özbəkistanlı boksçuya məğlub olaraq üçüncü yerlə kifayətləndi.

48 kq çəki dərəcəli idmançımız Namid Şanena da yarışda 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında çıxış etdi. O, turnirdə iki döyüş keçirdi və hər iki rəqibi ukraynalı idmançı oldu. Namid ilk döyüşündə qalib gəlsə də, növbəti mərhələdə uduzaraq, bürünc medala layiq görüldü. Bu, onun ikinci yarışı idi. İnanıram ki, onun da gələcək karyerası daha parlaq olacaq və yüksək nailiyyətlər qazanacaq.

2008-2009-cu illər təvəllüdlü boksçuların yarışında iştirak edən digər idmançımız isə Səccad Nəsir idi. O, turnirdə 54 kq çəki dərəcəsində qüvvəsini sınadı. Səccad 1/4 finalda slovakiyalı idmançıya qalib gəldi. Amma yarımfinalda o da Ukrayna idmançısına məğlub olaraq üçüncü yeri tutdu. Ümumilikdə, boksçularımızın çıxışından razı qaldım və inanıram ki, onların hər biri qarşıdakı yarışlarda uğurla çıxış edərək gələcəyin, dünya, Avropa və Olimpiya çempionları olacaqlar", - deyə Ceyhun Rüstəmov bildirdi.

Yaşının az olmasına baxmayaraq özündən böyüklər - 2008-2009-cu illər təvəllüdlülər arasında döyüşərək turnirin qalibi olan Mehran Rəsulov (63,5 kq) isə bu yarışda qazandığı nailiyyətin onun beynəlxalq səviyyəli turnirlərdə üçüncü çempionluğu olduğunu qeyd etdi.

"Bu turnir karyeram ərzində üçüncü beynəlxalq yarış idi. Rəqibim yerli idmançı Ukraynanın Lvov vilayətini təmsil edən boksçu oldu. Bu döyüşdə rəqibimlə aramda boy fərqi olmasına baxmayaraq məşqçilərimin tapşırıq və göstərişlərinə əməl edərək qalib gəldim. Taktiki plan üzrə işləyərək, ağır zərbələrlə rəqibimi məğlub etdim. Qeyd edim ki, bu yarışdan əvvəl 2019-cu ildə Ukraynada və Rusiyanın Ryazan vilayətində keçirilən beynəlxalq turnirlərdə də birinci yerə layiq görülmüşəm", - deyə Mehran Rəsulov bildirdi.

Ukrayna sınağında 2005-2006-cı illər təvəllüdlü boksçular arasında 70 kq çəki dərəcəsində bürünc medal qazanan Həsən Əhmədzadə isə turnirdəki çıxışı barədə danışaraq, bu sınağın onun ilk böyük yarışı olduğunu qeyd etdi.

"Bu mənim ilk sınağım idi. Bu səbəbdən bir qədər həyəcan keçirsəm də, rinqə çıxanda artıq həyəcanımı boğa bilmişdim. İlk rəqibim çexiyalı idmançı idi. Ona qalib gəldikdən sonra yarımfinalda polşalı boksçu ilə üz-üzə gəldim. Lakin bu görüşdə düşündüyümü edə bilmədim və rəqibimə məğlub olaraq bürünc medala sahib çıxdım. Bu yarış mənim üçün böyük təcrübə oldu. İnanıram ki, hər yarışda qazandığım təcrübə gələcək yarışlarda çempion olmağıma kömək olacaq. Mən bundan əvvəl Bakı birinciliyində bürünc, cəmiyyətimizin birinciliyində isə qalib adını qazanmışam. Bundan başqa respublika birinciliyində də mükafatçılar sırasında yer almışam", - deyə Həsən Əhmədzadə bildirdi.

Ukraynadakı beynəlxalq turnirdən sonra idman cəmiyyətinin yetirmələrini qarşıda daha böyük sınaqlar gözləyir. Hazırda yeniyetmələrin respublika birinciliyinə hazırlaşan "Zenit"in boksçuları aprelin 4-9-da İsraildə, iyunun 13-20-də isə Rumıniyada keçiriləcək beynəlxalq turnirdə gücləri ni sınayacaqlar. İnanırıq ki, idman cəmiyyətinin yetirmələri boksçularımızın hazırlıq səviyyəsinin artmasına hesablanan bu yarışlarda da, həm zəngin təcrübə, həm də uğurlu nəticələrlə Vətənə qayıdacaqlar.

*Azər Əlizadə*

## Xəbərlər

### Qılıncoynadanımız Türkiyədə bürünc medala sahib çıxdı

Yeniyetmə sablyaçılarımız Türkiyənin Ədirnə şəhərində keçirilən açıq turnirdə qüvvələrini sınayıblar. Abbas Hüseynov 14 yaşadək oğlan sablyaçılar arasında turnirin bürünc medalına sahib olub. Qrup mərhələsini 5 qələbə ilə başa vuran A.Hüseynov ən güclü 8-liyə kimi irəliləməyi bacarıb. Təmsilçimiz yarımfinala yüksəlmək uğrunda keçirilən görüşdə turnirin qalibi Ayaz Yiğitə 8:15 hesabı ilə uduzub.

On iki yaşadək qız sablyaçıların yarışında qüvvəsini sınayan Fatimə Kərimova isə qrup mərhələsini uğurla adlayaraq (2 qələbə) pley-offa yüksəlib. Burada ilk görüşünü qalib başa vuraraq ən güclü 32-liyə yüksələn F.Kərimova növbəti mərhələ uğrunda görüşdə yerli idmançı Hazal Sakaryaya uduzub.

### Yeniyetmə şpaqaçılarımız Slovakiyada yarışıblar

Yeniyetmə şpaqaçılarımız Slovakiyanın paytaxtı Bratislavada keçirilən "Cadet Circuit" çərçivəsində "Coupe du Danube 2022" turnirində qüvvələrini sınayıblar. Yeniyetmə oğlan şpaqaçıların şəxsi yarışında qrup mərhələsini 4 qələbə ilə başa vuran Orxan Həsənli pley-offda ukraynalı Nazar Yevtuşenkoya 10:15 hesabı ilə uduzub.

Qrupu 2 qələbə ilə bitirən Raul Aruslanov pley-offda Rusiya təmsilçisi Yevgeni Ptaşkinə 3:15 hesabı ilə məğlub olub.

Cəmil Hidayətov isə qrup mərhələsini qələbəsiz başa vurub.

### Tofiq Musayev "Bellator MMA" ilə müqavilə imzalayıb

Azərbaycanın idmançısı, Rizin Qran-Prisinin qalibi Tofiq Musayev "Bellator MMA" ilə müqavilə imzalayıb. Müqaviləyə əsasən, T.Musayev "BellatorMMA"da 4 döyüş keçirəcək.



Qeyd edək ki, ABŞ-da 2008-ci ildə təsis olunmuş "Bellator MMA" dünyada MMA döyüşlərini təşkil edən nüfuzlu təşkilatlardan biridir.

T.Musayev indiyədək keçirdiyi 18 döyüşün 14-də qələbə qazanıb. İdmançımız bu günə qədər UFC, Rizin, Bellator kimi bir sıra təşkilatların döyüşçüləri ilə qarşılaşaraq yüksək nailiyyətlərə imza atıb, dövlət bayrağımızı yüksəklərdə dalğalandırıb.

### Paytaxtımız dünya çempionatına ev sahibliyi edəcək

Oktyabrın 1-10-da Azərbaycan Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə Bakıda görmə məhdudiyyətli şəxslər arasında parapouerliftinq üzrə dünya çempionatı keçiriləcək.

Dünya çempionatında 25-dən çox ölkənin iştirakı gözlənilir. Yarış öncəsi beynəlxalq hakimlərin iştirakı ilə idmançılar üçün tibbi təsnifatın və eyni zamanda, hakimlər üçün seminarların da keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycanda 2022-ci ildə görmə məhdudiyyətli idmançıların iştirakı ilə 2 beynəlxalq yarış keçiriləcək. Noyabrın 7-9-da isə Bakıda paracüdo üzrə dünya çempionatı təşkil olunacaq.

Hekayə



*Mobil İSMAYILOV*

# Sumoçu qadın

- Ağlıma qeyri-adi ideya gəlib, - deyə, Ruslan birbaşa mətləbə keçərək arvadına gözlənilməz bir təklif etdi:

- Dina, vaxtı ilə böyük uğurların olub. İdman aləmində tanınırsan, nüfuzun var. Peşəkar vərdişlərin hələ qalmaqdadır. Gəl, qadın sumo klubu açaq. Bakıda yoxdur. Bu təşəbbüs maraqla qarşılanar, möhtəşəm bir yenilik olar. Təsəvvür etmədiyin diqqət mərkəzinə düşə bilərsən. Cüdo, güləş, ağırlıqqaldırma ilə məşğul olan qadınları qədim yapon idman növü - sumoçu idmançılara çevirib, daha da məşhurlaşa bilərsən.

- Ciddi deyirsən, ya məni ələ salırsan? Yoxsa, kökəlib şişman qadın olmağıma işarə vurursan?

- Zarafat etmirəm. Xeyli vaxtdır ki, bu barədə fikirləşirəm. İndi iş yerindən nə əmək haqqı alırsan ki? Sən Bakının idman tarixində yeni bir səhifə açmış olarsan. Həm də yaxşı pul qazanarıq.

- Bir xüsusi adrenalinim çatışmır. Özü də ideyan kişi işinə aiddir.

... Onların hər ikisinin taleyinə idmançı olmaq qisməti yazılmışdı. Ruslan yerli, Dinara isə gəlmə idmançı idi. Elə Bakıda tanış olub ailə qurmuşdular. Yarışlarda da birgə iştirak etmişdilər. Yüngül atletikanı seçmiş Ruslan beynəlxalq səviyyədə elə də böyük uğurlara imza ata bilməmişdi. Karyerasını başa vurduqdan sonra idman cəmiyyətində menecer kimi çalışırdı. Ağır çəkidə güləşən Dinara isə ərindən fərqli olaraq çoxlu titullar əldə edə bilmişdi. Ardıcıl bir neçə il müxtəlif yarışlarda Azərbaycanın təmsilçisi kimi çıxış edən legioner idmançı Avropa və dünya çempionu adını qazanmağa nail olmuşdu. Ancaq iki dəfə Olimpiya oyunlarına qatılsa da, fəxri kürsülərdən kənarda qalmışdı. Buna baxmayaraq idmançı qızın nailiyyətləri layiqincə qiymətləndirilmişdi. O, medalla təltif edilmiş, mənzillə də təmin olunmuşdu. Artıq müəyyən müddət idi ki, Dinara ciddi zədələr və çəkisinin birdən-birə artması səbəbindən peşəkar fəaliyyətinə son qoymuşdu. Daha sonra o da ərinin işlədiyi idman kompleksində məşqçi kimi işə götürülmüşdü.

Son vaxtlar tez-tez legioner məşqçi Bakıda darıxdığını ərindən gizlətmirdi. Hətta mənzili satıb köçmək fikrinə düşsə də, Ruslan razılaşmamışdı.

Dinara rəsmi yarışlardan uzaqlaşdıqdan sonra xeyli kökəlmişdi. Boyu 170 sm. olan gənc qadının çəkisi 90 kq-ı keçmişdi. Sanki hazırkı vəziyyətdə onun bu fiziki göstəriciləri ilə Ruslanın ideyası arasında bir uyğunluq yaranırdı.

Qısa müddətli tərəddüddən sonra Dinara ərinin təklifi ilə razılaşdı. Ruslan Dinaranı inandırdı ki, Yaponiyada sumonun qadın variantı da mövcuddur. Özü də hələ 18-ci əsrdə yaranıb. Qaydalar da bir qədər fərqli olmaqla əslində həqiqi sumo ilə təxminən oxşardır.

Bundan sonra hər ikisi internet vasitəsi ilə müəyyən məlumat əldə etdilər. Eyni zamanda sumoya aid xüsusi kitabları nəzərdən keçirdilər. Xüsusən klassik yapon sumosunun tarixi onların diqqətini cəlb etdi. Yaponiyada sumo üzrə çempionların az qala milli qəhrəman kimi qəbul olunması ər-arvadı təəccübləndirdi. Hətta imperator da həmişə qaliblərə xüsusi rəğbət bəsləyib. Ər-arvada bəlli oldu ki, hazırda da bu ölkədə ciddi qaydalar çərçivəsində xüsusi məktəblər fəaliyyət göstərir. İdmançılar gün ərzində gərgin məşqlərə vərdiş etməlidirlər. Bununla belə normal istirahətə də vaxt ayrılır. Onlar isti vannalardan yararlanır, məhdudiyyət qoymadan müxtəlif qidalarla təmin olunurlar. Amma xüsusi qida rejimlərinə əməl edilməsi şərti ilə. Bu məktəblərdə idmançıların hökmən fərqli saç düzümü olmalıdır.

Baxmayaraq ki, sənin təklifini qəbul etdim, ancaq sumo ilə Yaponiyada kişilərin məşğul olması yenə də məni düşündürür - deyə, Dinara sual dolu nəzərlərini ərinin üzünə dikdi.

Elədir, rəsmi turnirlər kişilər arasında keçirilir. Amma əldə etdiyimiz məlumatlardan gördük ki, dünyanın bəzi ölkələrində qadın sumo klubları da vardır. Məsələn, elə qonşu Rusiyanı götürək. Qadın sumosuna bu ölkədə böyük maraq yaranıb. Bundan başqa internetdə latın Amerikasında, Tailandda, Sinqapurda, İtaliyada, Bolqarıstan, hətta Gürcüstanda açılmış qadın klublarına rast gəlmişəm. Belə klublarda tez-tez şou-proqramlar təşkil edilir. Reklam çarxlarında da qadın sumoçulara geniş meydan verilir. Buna görə də bu cür klublara tamaşaçı axını getdikcə daha da artır.

Adlarını çəkdiyin yerləri başa düşdüm. Bəs Bakıda?

Görəcəksən, burada da alınacaq. Sumo geyimində zalda görünməyini təsəvvür edirəm. Sən salonları tamaşaçı alqışları ilə lərzəyə gətirən ilk sumoçu qadın olacaqsan. Sensasiya yaradacaqsan, şoka düşənləri də eşidəcəksən. Əmin ol ki, səni ağılagəlməz xoşbəxt günlər gözləyir.

Çox keçmədi ki, onlar idman kompleksinin həyətindəki kiçik korpusu icarəyə götürüb fəaliyyətə başladılar. Yaratdıqları klubun adını da "Sumotori" qoydular. Belə ki, Yaponiyada sumo ilə məşğul olanları "sumotori" adlandırırlar.

İlk vaxtlar sumoya maraq göstərən gənc qadınlar və qızlar elə də çox deyildi. Lakin tədricən həvəskarların sayı artmağa başladı. Kluba qədəm qoyanlar elə bil kino-filmlərdə təsvir olunan epizodlarla qarşılaşırdı. Hər tərəfdə dolu bədənli gənc xanımlar dayanmadan məşq edirdi. Zalda hərəkətdə olanlar, rinqdə, açıq havada idman tapşırıqlarını yerinə yetirənlər təbəssüm doğuran təəssüratlar yaradırdı. Fərdi proqramla məşğul olanlara da təsadüf edilirdi. Klubun daimi üzvlərinin hamısı silikondan uzaq, təbii kök idmançılar idi. Məşqlərə ümumi rəhbərliyi bir qədər də çəki artırıb əsl sumotoriyə çevrilən Dinara həyata keçirirdi. Növbəti axşamların birində Ruslan sevincli halda ona dedi:

İri qabaritli gənc xanımların toplandığı klubun artıq idman funksionerlərinin, yerli, xarici medianın diqqət dairəsinə düşüb. Məni sorğu-suala tutanlar meydana çıxıb. Müsahibə götürmək, süjet çəkib veriliş hazırlamaq istəyənlər də var. Deyəsən, proqnozlarımız təsdiq olunur.

Tezliklə klub birinci çempionatını keçirdi. Rusiyadan, Ukraynadan, Qazaxıstandan, Gürcüstandan da idmançılar çağırılmışdı. Dinara və klub üzvləri arasında fərqlənənlər ilk rəsmi yarışa qatıldılar. Qadınların mübarizəsinə baxmağa gələn tamaşaçılar çox idi. Dinara dəvət olunmuş qonaqları da üstələyərək yarışın çempionu oldu. Bir qədər sonra Moskvada keçirilən turnirdə iştirak edən Dinara burada da uğur qazandı. Sumonun sirlərinə yiyələnən Dinara bütün rituallara əməl etməyi bacarırdı. Yəni, geyim qaydalarını seçməyi, mübarizədən əvvəl və sonra rinqdəki hərəkətləri, tamaşaçılara təsir göstərməyin öhdəsindən gəlməyi, təsiredici baxışlar və qışqırıq səsləri nümayiş etdirmək kimi zəruri keyfiyyətləri lazımi dərəcədə mənimsəmişdi. Belə ki, sumo döyüşlərində bu amillərin mühüm əhəmiyyət kəsb etməsindən o, kifayət qədər məlumatlı idi. Dinaranın xoşagəlimli üz cizgiləri də yarışlardan, tədbirlərdən sonra ondan avtoqraf istəyən çoxsaylı tamaşaçıların yaranmasına imkan verirdi. Onunla tanışlığa can atan, onu görüşə dəvət edən şəxslərə və turistlərə də təsadüf olunurdu. Gözlənildiyi kimi, qadın sumosunun fanatları artırdı. Getdikcə tamaşaçılar bir daha əmin olurdu ki, qadın sumosunun da öz cazibəsi var və bu idman növünün ehtirasları sanki başqa cürdür. Onlar görürdülər ki, bu yarışlarda da həyəcanlı anlar yaşanır, fərqli mübarizə pərəstişkarları öz təsiri altında saxlayır, alınan zövq zalda əyləşənləri möcüzəli bir aləmə aparır. Beləliklə, qadın sumosunun da özünəməxsus gözəlliklərinin olması göz qabağında idi.

Dinara günü-gündən şöhrətlənirdi. Məşhurlaşan sumoçu şou-proqram xarakterli tədbirlərə də qatılmağa başladı.





*Ardı var...*

## Azərbaycan çempionatının qalibləri müəyyənləşdi

Kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarının, həmçinin idman cəmiyyətlərinin idmançılarının iştirak etdiyi yarışda 100 boksçusu qüvvəsini sınayıb. Beş gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Boks Mərkəzində təşkil olunan çempionatda final görüşləri keçirilib. Həlledici döyüşlərdə qalib gələn Həsən Məlikov (48 kq), Məsud Yusifzadə (51 kq), Ruslan Qədirov (54 kq), Ümid Rüstəmov (57 kq), Tayfur Əliyev (60 kq), Malik Həsənov (63,5 kq), Nəbi İsgəndərov (67 kq), Niyaməddin Allahverdiyev (71 kq), Mirşərif Kazımzadə (75 kq), Murad Allahverdiyev (80 kq), Eldar Quliyev (86 kq), Rauf Rəhimov (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) çempion tituluna sahib olublar.

Turnirin komanda hesabında "Neftçi" birinci yeri tutub. İkinci pilləyə BFL, üçüncü yerə isə "Qızıl ələk" komandası sahib çıxıb.

Çempionatda ən yaxşı boksçu adına Niyaməddin Allahverdiyev layiq görülüb. Rəhim Əliyev ən əzmkar idmançı seçilib. Elxan Quliyevlə Etibar Alıyev ən yaxşı hakim, Albert Qəribov (Gəncə) və Rafiq İsmayılov ("Neftçi" İK) isə ən yaxşı məşqçi adını qazanıblar.

Qeyd edək ki, mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

## UEFA Azərbaycan Premyer Liqasında çıxış edən 7 kluba ödəniş edib



UEFA Azərbaycan Premyer Liqasında çıxış edən 7 futbol klubuna ödəniş edib. Məbləğ 2020/2021-ci il mövsümünü əhatə edən UEFA-nın "Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı" proqramına görə ödənilib.

Qeyd olunan mövsümdə daxili çempionatda çıxış etmiş, lakin UEFA Çempionlar Liqası və UEFA Avropa Liqası turnirlərinin qrup mərhələsində iştirak etməmiş klubların hesabına UEFA-dan maliyyə vəsaiti ayrılıb. "Qarabağ" istisna olmaqla, "Neftçi", "Səbail", "Qəbələ", "Zirə", "Sumqayıt", "Sabah" və "Keşlə"yə 72 min 866 avro ödənilib. Məbləğlər AFFA-nın vasitəçiliyi ilə klubların hesablarına köçürülüb.

Qeyd edək ki, "Keşlə" üçün nəzərdə tutulmuş vəsait onun aylıq cari xərclərini ödəmək üçün növbəti aylarda Futbolun İnkişaf Fondundan klubun hesabına köçürüləcək.

## Azərbaycan klublarının transferlərə xərclədiyi məbləğ açıqlandı

FİFA 2021-ci ilin transfer hesabatını açıqlayıb. Hesabatda Azərbaycanla bağlı göstəricilər də bəlli olub. Ötən il Azərbaycan klubları 68 futbolçunu xaricdən transfer edib. Ölkə xaricinə isə 59 oyunçu göndərilib.

Bu transferlərdə 12 klub iştirak edib. Onlar transferlərə 700 min ABŞ dolları xərcləyiblər.

## Sloveniya şahmat üzrə qitə çempionatına ev sahibliyi edəcək

Martın 27-dən aprelin 6-dək Sloveniyada şahmat üzrə Avropa çempionatı keçiriləcək. Bu barədə Avropa Şahmat İttifaqının (ECU) rəsmi saytı məlumat yayıb. İsveçrə sistemi üzrə təşkil olunacaq yarış 11 turdan ibarət olacaq. Turnirin ümumi mükafat fondu 100 min avro təşkil edəcək ki, onun da 20 min avrosu qalib üçün nəzərdə tutulub. Bundan əlavə, ən yaxşı nəticə göstərən 23 oyunçu mükafatlandırılacaq.




Turnirdə həmçinin, ən yaxşı qadın oyunçular, gənc oyunçular, yaşlı oyunçular üçün xüsusi mükafatlar da nəzərdə tutulub.

Qitə birinciliyi 2023-cü ildə keçiriləcək dünya kuboku yarışlarının seçmə mərhələsidir. Belə ki, Beynəlxalq Şahmat Federasiyası (FIDE) və ECU Şurasının qərarına əsasən, yarışa 20 oyunçu vəsiqə qazanacaq.

Turnirdə titulundan və reytinqindən asılı olmayaraq ECU-ya üzv olan federasiyaları təmsil edən bütün oyunçular iştirak edə biləcəklər. Bununla belə, qeydiyyat üçün ərizələr yalnız milli federasiyalar tərəfindən göndəriləcək. Turnirə son qeydiyyat tarixi fevralın 20-dəkdir.

## Velosiped İdmanı Federasiyasına yeni baş katib seçilib

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) prezidenti Mədət Quliyevin sədrliyi ilə federasiyanın icraiyyə komitəsinin növbədənkənar iclası olub.

Tədbirdə federasiyanın baş katibi vəzifəsinə səsvermə keçirilib. İcraiyyə komitəsinin üzvləri bu vəzifəyə namizədliyi irəli sürülən Elnarə Musayevaya yekdilliklə səs veriblər.

Sonra federasiya prezidenti yeni idman direktoru, ukraynalı mütəxəssis Oleq Berezovskini tədbir iştirakçılarına təqdim edib.

İclasda 2022-ci ildə icrası planlaşdırılan məsələlər müzakirə edilib. Federasiya prezidenti məşqçilərin tədris prosesinin təkmilləşdirilməsinə, idmançıların təlim-tərbiyəsinə, onların ictimaiyyət arasında davranış qaydalarına və təhsil müəssisələrində davamiyyətə riayət etmələrinə xüsusi diqqət yetirmələrinə və bu məsələlərin plana salınmasına dair tapşırıq və tövsiyələrini verib.

## Şəhidlərin xatirəsinə həsr olunmuş blits turniri təşkil olunub

Ucar Rayon Uşaq Gənclər İdman Şahmat Məktəbində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş blits turnir keçirilib. Yarışda 7 xal toplayan Vaqif Qəhrəmanov birinci yeri tutub. Nurlanə İsayeva 6 xal, Cəsur Daşdəmirli 5 xalla müvafiq olaraq, ikinci və üçüncü pillələrdə qərarlaşıblar.

Yarış İsveçrə sistemi üzrə keçirilib və 7 turdan ibarət olub.

## 20 Yanvar şəhidlərinin xatirəsinə beynəlxalq turnir keçiriləcək

Yanvarın 21-də Azərbaycan Milli Karate Federasiyasının (AMKF) və "Arpaçay" karate klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş 6-cı "Arpachay Open" beynəlxalq karate turniri start götürəcək. AMKF-in mətbuat xidmətindən verilən məlumata görə, ənənəvi yarışda 10-dək ölkədən 40-dan çox klubu təmsil edən 400-dək idmançının iştirakı gözlənilir. Xatirə turniri uşaq, yeniyetmə və 21 yaşadək gənclər arasında 7 yaş dərəcəsi üzrə təşkil olunacaq.

Turnirə yanvarın 23-də yekun vurulacaq.

### Redaksiyanın poçtundan



## Masallıda açıq mini futbol turniri başa çatıb

Masallı Rayon Gənclər və İdman İdarəsinin, Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş mini futbol üzrə açıq rayon turniri başa çatıb. Turnirə Masallı rayonundan 5, Bakı şəhərindən 3, Cəlilabad rayonundan isə 4 komanda qatılmışdı. Rayondakı "Viləş" mini futbol stadionunda yaşıl meydançaya çıxan 10-13 yaşlı futbolçular üç yaş qrupu üzrə yarışıblar. Yarışların yekun nəticəsinə görə 10 və 12 yaşlılar arasında Masallının UGİŞM, 13 yaşlılar arasında Bakının "Azəri" futbol klubu birinci olub. 10 yaşlardan ibarət Masallının "Azad" FK kollektivi ikinci, Cəlilabadın UGİŞM komandası isə üçüncü yerə layiq görülüb.

Yarış başa çatandan sonra qalib komandalara təşkilat komitəsinin kubok, diplom və medallar, məşqçilərə isə təşəkkürnamə və hədiyyələr verilib.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

olimpnews.az - sizin saytınız




## "Real Madrid" 12-ci dəfə İspaniya Super Kubokunu öz muzeyinə apardı

Futbol üzrə İspaniya Super Kubokunda final oyunu keçirilib. Həlledici görüşdə "Real Madrid" və "AtletikBilbao" komandaları üz-üzə gəlib. Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyaddakı "Kral-Fəhd" stadionunda təşkil olunmuş qarşılaşma "Real" komandasının qələbəsi ilə başa çatıb - 2:0. Hesabı 38-ci dəqiqədə Luka Modriçaçıb. 52-ci dəqiqədə isə Kərim Benzema penaltini dəqiq yerinə yetirərək komandasının üstünlüyünü bir qədər də artırıb.



87-ci dəqiqədə "kral klubu" Eder Militaonun meydandan qovulması səbəbindən azlıqda qalıb. Lakin "Atletik" say üstünlüyündən yararlana bilməyib.

Bununla da "Real Madrid" tarixində 12-ci dəfə İspaniya Super Kubokuna sahib olub.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci süllh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.